# Bakı Təşəbbüs Qrupu kolonializmdən əziyyət çəkən xalqların ümidinə çevrilib

Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə Bakıda "İmperial quruluş: müstəmləkəçilik ideologiyaları və reallıqlar" mövzusunda keçirilən beynəlxalq elmi konfransın böyük əhəmiyyəti var.



Bu konfrans BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq toplantısı oldu. Elmi konfransda BMT-nin dekolonizasiya sahəsi üzrə təcrübəli ekspertləri, Fransanın keçmiş və hazırkı müstəmləkələrində fəaliyyət göstərən tanınmış alimlər, beynəlxalq hüquq sahəsində nüfuzlu mütəxəssislər, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri iştirak etdilər.

Tədbirdə müstəmləkəçilik siyasətinin ağır fəsadları, kolonial dövlətlərin əsarət altında saxladıqları xalqlara münasibətdə həyata keçirdikləri siyasət, tətbiq olunan ayrı-seçkilik metodları, habelə neokolonializmin tərkib hissəsi olan siyasi, iqtisadi və mədəni məhdudiyyətlər, milli kimliyin məqsədli şəkildə itirilməsi siyasəti elmi və metodoloji yanaşmalar əsasında dərindən təhlil edildi.

Fransa və Niderlandın Afrika ölkələrinin bir hissəsini hələ də nəzarətlərində saxladıqlarını diqqətə çatdıran Milli Məclisin deputatı Vüqar Rəhimzadə qəzetimizə açıqlamasında bildirib ki, onların bu ölkələrin təbii sərvətlərini talayaraq öz varidatlarını artırması, xalqların milli kimliklərini məhv etməsi acı reallıqdır. Azərbaycan hələ də davam edən müstəmləkəçiliyə qarşı mübarizə aparan xalqlara aktiv şəkildə dəstək verir, onların səsini dünyaya çatdırır. "Bu məsələdə böyük rol oynayan Bakı Təşəbbüs Qrupu müstəmləkə xalqlarının özlərini ifadə etmələri üçün çox vacib platformaya çevrilib. Bakı Təşəbbüs Qrupu tərəfindən müstəmləkəçilikdən əziyyət çəkən ölkələrin, xalqların səslərinin dünya ictimaiyyətinə çatdırmaq istiqamətində ciddi addımlar atılır. Bakı Təşəbbüs Qrupu kolonializmdən əziyyət çəkən xalqlar üçün ümid mənbəyinə çevrilib. Müasir müstəmləkəçiliyin istənilən forması ciddi beynəlxalq hüquqi mexanizmlərlə, ictimai idarəetmə və çoxtərəfli əməkdaşlıq vasitəsi ilə aradan qaldırılmalı, zülm altında olan xalqların səsləri beynəlxalq təşkilatların, dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır", - deyə deputat əlavə edib.

V.Rəhimzadə qeyd edib ki, BMT-nin müxtəlif strukturlarında dekolonizasiya sahəsində çalışan, eləcə də bu sahə üzrə ixtisaslaşmış alimlərin ilk beynəlxalq konfransı bu baxımdan böyük əhəmiyyət daşıyır. Beynəlxalq elmi konfransda qəbul edilmiş Bakı Bəyanatında Dekolonizasiya üzrə Beynəlxalq Tədqiqat və Bilik Platformasının yaradılması ilə bağlı ortaq niyyət ifadə edilib və beynəlxalq təşkilatlara bu platformaya dəstək vermələri ilə bağlı çağırış edilib. Bu tədbirlərin reallaşdırılması ədalətsizliklərin aradan qaldırılması, dayanıqlı inkişaf və dekolonizasiyaya nail olmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***




Azərbaycan.- 2025.- 6 iyun (№117).- S.8.